"İQTİSADİ İSLAHATLAR"
elmi-analitik jurnal

# İNNOVATİV İQTİSADİYYATIN İNKİŞAFINDA İNSAN KAPİTALININ ROLU

№ 3(8)-2023
səh. 15-24

i.e.n., dos. Mətanət RƏSULOVA,
Bakı Dövlət Universiteti,
Maliyyə və menecment kafedrasının dosenti,
İİTKM-in insan resursları üzrə meneceri

Sura TAĞIYEVA,
Bakı Dövlət Universiteti,
Maliyyə və menecment kafedrasının magistri
İİTKM, islahat könüllüsü

matanat.rasulova@ereforms.gov.az

# İnnovativ iqtisadiyyatın inkişafında insan kapitalının rolu

i.e.n., dos. Mətanət RƏSULOVA,
Bakı Dövlət Universiteti,
Maliyyə və menecment kafedrasının dosenti,
İİTKM-in insan resursları üzrə meneceri

Sura TAĞIYEVA,
Bakı Dövlət Universiteti,
Maliyyə və menecment kafedrasının magistri
İİTKM, islahat könüllüsü

**XÜLASƏ**

İqtisadiyyatda uğurun əldə edilməsi innovativ potensialın olması və onun həyata keçirilməsi şərtləri ilə əlaqədardır. Məqalədə innovativ iqtisadiyyatın inkişafı üçün insan fəaliyyətinə effektli iqtisadi baxışın zəruriliyi əsas götürülmüşdür. Azərbaycanın insan kapitalı üzrə beynəlxalq aləmdə möveyinin müəyyənləşdirilməsi məqsədi ilə müqayisəli təhlil aparılmış, təhlil əsasında bu sahədəki mövcud vəziyyət, göstəricilərin dinamikası verilmişdir. İllər üzrə ölkəmizin mövqeyində baş verən dəyişikliklər reytinq göstəricilərinə təsir edən amillərlə əlaqədardır. Reytinqlər üzrə göstəricilərin zəif tərəflərinin yaxşılaşdırılması, ümumilikdə isə yüksək kəmiyyət göstəricilərinin əldə edilməsi üçün sistemli planlaşdırmanın həyata keçirilməsi öz aktuallığını qoruyur. Bununla yanaşı zəif göstəricilər üzərində genişmiyaslı araşdırmaların aparılması, səbəblərin konkret olaraq müəyyənləşdirilməsi və dövlət səviyyəli həll mexanizimlərinin tətbiq edilməsi beynəlxalq hesabatlarda Azərbaycanın mövqeyinin artmasında xüsusi əhəmiyyətə malikdir. Ölkəmizdə aparılan islahatların təhlili göstərir ki, insan kapitalının idarə edilməsinə yönəldilmiş düzgün dövlət siyasəti sayəsində Azərbaycan Respublikasında innovasiyalı iqtisadiyyatın yaradılması və inkişafı üçün əlverişli şərait yaranmışdır.

***Açar sözlər:*** *insan kapitalı, reytinq, innovativ iqtisadiyyat, iqtisadi inkişaf*

***JEL kodu:*** *E22; R42*

## GİRİŞ

Bu gün planetimizin vahid iqtisadi bazara çevrilməsi dövrünü yaşayırıq. Öz növbəsində bu transformasiya prosesi "sərhədsiz dünya" müasir konsepsiyasını inkişaf etdirərək ölkələrin güclərinin birləşməsini tələb edir. Bu cür çağırışlara cavab olaraq 2015-ci ildə BMT-yə üzv ölkələr 2030-cu ilə qədər Dayanıqlı İnkişaf üzrə qlobal Gündəliyi, "Dayanıqlı İnkişaf Məqsədlər"ini qəbul etdilər. Bu Gündəliyin məqsədi milli strategiyaları iqtisadi, sosial və ekoloji prinsiplərin üçlüyünü təmin edən bütün bəşəriyyətin gələcəyinə dair universal baxışa uyğunlaşdırmaqdır.

Yeni çağırışlar göstərir ki, yüksək keyfiyyətli insan kapitalı olmadan hər hansı davamlı inkişaf məqsədini effektiv həyata keçirmək mümkün deyil. Nəticə etibarı ilə təhsilə olan tələbat sürətlə artır, çünki iqtisadiyyat və iqlimdəki qlobal problemlər insan kapitalının, yəni həyat tərzinin, mentalitetinin və vərdişlərinin sürətlə transformasiyasını tələb edir. Bu dəyişikliklərin reallığa çevrilməsi üçün davamlı olaraq cəmiyyətin inkişafını təmin edəcək yeni praktiki bacarıqlar, dəyər meyarları və davranış münasibətləri lazımdır.

# İNSAN KAPİTALI DAVAMLI İQTİSADİ İNKİŞAFIN ƏSAS AMİLİ KİMİ

Son zamanlar bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr dayanıqlı iqtisadi artımın prioritetlərini müəyyənləşdirmişlər. İstənilən ölkədə milli iqtisadiyyatın davamlı olaraq inkişaf etdirilməsi üçün ilk öncə milli iqtisadi inkişaf strategiyasının konseptual əsaslarının işlənib hazırlanmasına, praktiki cəhətdən reallaşdırılmasına nail olmaq zəruri hesab olunur. Bu gün ölkədə bilik iqtisadiyyatını, iqtisadi təfəkkür tərzini və cəmiyyəti innovativ olaraq inkişaf etdirmək məqsədi ilə sosial-iqtisadi, ekoloji problemlərin həll edilməsi dövlətin ən aktual prioritetlərindəndir.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafı məqsədilə reallaşdırılması nəzərdə tutulan beş Milli Prioritetdən üçüncü rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanına nail olmaqdır. Sənəddə insan kapitalının rəqabət qabiliyyətinin yüksəldilməsi, bazar və dövlət mexanizminin tətbiq edilməsində innovasiyalı investisiya fəallığının artırılması əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Bunun üçün müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı əsas şərtdir [1]. Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirtdiyi iqtisadi inkişaf siyasətində əsas məqsəd ölkədə rəqabətə davamlı insan kapitalını, təhsili, səhiyyəni, müasir innovasiyalar məkanını XXI əsrin şərtlərinə uyğun reallaşdırmaqdan ibarətdir.

İnsan kapitalı dedikdə, cəmiyyətdə insanın özünü tam olaraq realizə etməsi və cəmiyyətin yaratdığı imkanlardan yararlanması üçün insanın sahib olduğu bilik, bacarıq, peşəkarlıq və əlaqələrinin cəmi başa düşülür. İlk dəfə Teodor Şults tərəfindən işlədilən bu termini sonradan davamçısı Heri Bekker inkişaf etdirmişdir. Əvvəllər insan kapitalı termini insana sərf edilən investisiya kimi başa düşülürdü. Anlayış genişləndirildikdən sonra isə bura insanın istehlak xərcləri, təhsil, təcrübə, səhiyyə xərcləri və s. aid edilmişdir [15].

Vətəndaş amili, əhalinin yüksək rifahı və layiqli həyat səviyyəsi Azərbaycanda dövlət siyasətinin əsasını təşkil edir. Müasir dövrdə isə dövlət əmək bazarının tələblərinə cavab verəcək bilik və bacarıqların formalaşdırılması, rəqabət qabiliyyətli insan kapitalının inkişaf etdirilməsi, iqtisadiyyatın innovativ texnologiyalar əsasında formalaşdırılması ilə sosial rifah səviyyəsini artırmağı hədəfləyir. Yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycan dövləti dünyada gündən-günə artmaqda olan rəqabətə uyğun insan kapitalının formalaşdırılması nəticəsində arzu edilən rifaha nail olmağı prioritet olaraq müəyyən etmişdir. Bununla əlaqədar olaraq ölkəmizdə rəqəmsal iqtisadiyyatın və texnologiyaların inkişaf etməsi üçün əlverişli infrastrukturun yaxşılaşdırılması istiqamətində fəal tədbirlər həyata keçirilir.

Həmçinin, idarəetmə sahəsində effektivliyin artırılması və təkmilləşmə əsas götürülərək insan kapitalının, kadr potensialının inkişafı, istedadlı kadrların aşkar edilməsi üçün yeni layihələr həyata keçirilməkdədir.

İqtisadiyyatın inkişafı ilə bərabər dünya ölkələrinin bu sahədə irəliləyişləri iqtisadçıların tədqiqlərində xüsusi yer tutur. Bir cəmiyyətin rəqabət gücünə bağlı olaraq onun iqtisadi gücünü müəyyənləşdirmək olar. Rəqabət gücünün artırılmasına təsir edən ən effektiv vasitə isə innovasiyadır. Bunu innovasiyanın məhsuldarlığı artırması qabiliyyəti ilə əlaqələndirə bilərik. İnnovasiyanın tətbiqi yeni yaranan ideyalarla elm və texnikanı inkişaf etdirərək gəlirin artması, məşğulluq probleminin aradan qaldırılması və ümumilikdə iqtisadi vəziyyətin inkişafına səbəb olur. İnnovasiya ölkələrin iqtisadi baxımdan inkişafı və rifahının yüksəlməsinə müsbət təsir göstərir. Bu isə innovasiyanın elmi-texniki nailiyyətlərdən yüksək səviyyədə istifadəsi, yeni texnologiyanın tətbiq edilməsi və beləliklə, iqtisadi artımın əldə olunmasına yönəldilmiş olması ilə əlaqədardır.

Digər ölkələrlə yanaşı Azərbaycanda da innovasiya siyasətində effektivlik əldə edilməsi dövlət səviyyəsində xüsusi önəm kəsb edir. Sosial-iqtisadi sahədə innovasiya siyasəti dövlət siyasətinin əsas hissəsi olmaqla elm, texnologiya cəhətdən hakimiyyət orqanlarının apardığı fəaliyyətin məqsədini və növlərini müəyyənləşdirir. Ölkəmizdə innovasiya siyasəti əsasında innovativ iqtisadiyyatın qurulması əsas fəaliyyət istiqamətlərindən biridir. Azərbaycan

Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixində "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanı ilə təsdiq edilən strateji sənədlərdə innovasiyalar xüsusi əhəmiyyətə malikdir[2].

## QLOBAL İNNOVASİYA İNDEKSİ ƏSASINDA TƏHLİL

Dünya ölkələrindəki innovasiya mexanizmlərinin səmərəliliyinin qiymətləndirilməsi və innovasiya sahəsindəki performanslarının müqayisəsi üçün Qlobal İnnovasiyalar İndeksi (QİI) hesabatı nəşr edilir. QİI layihəsi professor Soumitra Duttaya məxsusdur. Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) 2011-ci ildə QİI ilə əməkdaşlıq edərək, 2012-ci ildən etibarən QİI-ni birgə nəşr etməyə başlamışlar. 2013-cü ildən 2020-ci ilə qədər Kornell Universiteti, INSEAD və ÜƏMT tərəfindən birgə nəşr olunan QİI 2021-ci ildən etibarən ÜƏMT tərəfindən Portulans İnstitutu, müxtəlif korporativ və akademik şəbəkə tərəfdaşları və QİI Məsləhət Şurası ilə birlikdə nəşr olunur. QİI müxtəlif faktorları nəzərə alaraq ölkələrin innovasiya potensialını və inkişafını müqayisə etmək üçün hazırlanır[4].

Ölkələrin innovasiya sahəsindəki potensialının ölçülməsi üçün istifadə edilən göstəricilərə elmi və texnoloji potensial, istehlakçı tədqiqatları, yaradıcı sahələrin inkişafı və s. aiddir. Bu indeks, ölkənin elmi və texnoloji potensialını, iqtisadi inkişaf səviyyəsini və s. qiymətləndirməklə yanaşı, bu sahədəki güclü və zəif tərəflərini müəyyənləşdirir.

Ölkələrdə innovasiyanın mövcud vəziyyətini dolğun olaraq ifadə etmək üçün indeks iki fərqli alt-indekslərə ayrılır: innovasiya amilləri alt-indeksi (innovation input) və innovativ nəticələr alt-indeksi (innovation output). Ümumilikdə isə QİI tərkibində 7 komponenti birləşdirir. Bu komponentlərdən 5-i (İnstitutlar, İnsan kapitalı və tədqiqatlar, İnfrastruktur, Bazar inkişafı, Biznesin inkişafı) İnnovasiya amilləri alt-indeksinə, 2-si (Elmi-texnoloji yeniliklər, Kreativ nəticələr) isə innovativ nəticələr alt-indeksinə aiddir. 132 ölkəni əhatə edən 2023-cü il hesabatına əsasən qeyd edə bilərik ki, təxminən 82 amil nəzərə alınaraq ölkələrin innovasiya potensialını və mövcud inkişafı qiymətləndirilir [4].

Azərbaycanın da yer aldığı QİI hesabatının 2023-cü il nəşrinə əsasən bu ilin ən innovativ iqtisadiyyatı İsveçrəyə məxsusdur, ondan sonra İsveç, ABŞ, Böyük Britaniya və Sinqapur gəlir. Postsovet ölkələri arasında reytinq təhlili apardıqda isə görərik ki, 2022-ci ilin hesabatında olduğu kimi bu ildə ön sıralarda ardıcıl olaraq Estoniya 16-cı, Litva 34-cü, Latviya 37-ci yerdə qərarlaşmışdırlar.

**Cədvəl 1. Bəzi postsovet ölkələrinin QİI üzrə reytinq göstəriciləri**

| Ölkələr | 2023 | | |
|---|---|---|---|
| | QİI | İnnovasiya amilləri | İnnovasiya nəticələri |
| Estoniya | 16(+2;+5) | 14(+1;+10) | 16(+6;+4) |
| Litva | 34(+5;+5) | 32(+2;+3) | 37(+10;+6) |
| Latviya | 37(+4;+1) | 38(+1;= ) | 39(+3;= ) |
| Rusiya | 51(-4;-6) | 58(-12;-15) | 53(-3;-1) |
| Qazaxıstan | 81(+2;-2) | 68(-3;-7) | 87(+10;+14) |
| Azərbaycan | 89(+4;-9) | 76(+3;-2) | 104(+6;-13) |
| Qırğızıstan | 106(-12;-8) | 94(-9;-13) | 112(-4;+7) |
| Tacikistan | 111(-7;-8) | 109(-5;-5) | 107(-6;-11) |

Mənbə: Qlobal İnnovasiya İndeksinin 2021-2023-cü illər üzrə hesabatları əsasında tərtib edilmişdir.

*Qeyd: xanalarda mötərizədəki 1-ci rəqəm 2022-ci il , 2-ci rəqəm isə 2021-ci il ilə müqayisədə dəyişən reytinqin kəmiyyətlə ifadəsidir. Müvafiq olaraq rəqəmlərin qarşısındakı "+" işarəsi reytinqdəki irəliləyişi, "-" işarəsi isə gerilənəni ifadə edir.*

Cədvəl 1-də Azərbaycanın və digər postsovet ölkələrinin 2023-cü il və son iki il ilə müqayisədə reytinqlərdəki dəyişikliklər əks olunmuşdur. QİI-nin indikatorlarının tərkibindəki dəyişikliklər QİI reytinqlərinin illik müqayisə edilməsinə təsir göstərir. 2022-ci il hesabatında QİI üzrə ölkəmiz 93-cü yerdə qərarlaşmışdır. 2023-cü il hesabatında Azərbaycan mövqeyini 4 pillə, yəni 93-cü yerdən 89-cu yerə yüksəltməklə yaxşılaşdırmışdır. Azərbaycan "İnnovasiya amilləri" alt-indeksi üzrə reytinqə uyğun olaraq ötən ilə nisbətən sıralamada 3 pillə yüksələrək 76-cı yerdə qərarlaşmışdır.

İnnovativ nəticələr alt-indeksi üzrə reytinqə nəzər saldıqda isə görərik ki, bundan əvvəlki il üçün 110-cu yerdə olduğu qeyd olunan QİI hesabatının 2023-cü il nəşrində artıq 6 pillə, yəni 104-cü yerədək yüksəldiyi açıqlanmışdır. Bununla yanaşı, onu da qeyd etmək lazımdır ki, ölkəmiz 2021-ci illə müqayisədə eyni alt indeks üzrə indiki mövqeyindən 13 pillə daha yüksəkdə, 91-ci yerdə qərarlaşmışdır.

**Cədvəl 2. 2023-cü il üzrə bəzi postsovet ölkələrinin QİI indikator qruplarına görə mövqeyi**

| Ölkələr | Komponentlər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | İnstitutlar | İnsan kapitalı və tadqiqat | İnfra-struktur | Bazarın inkişafı | Biznesin inkişaf səviyyəsi | Bilik və texnologiya sahəsində nəticələr | Kreativ nəticələr |
| Estoniya | 11(+1) | 34( = ) | 5(+5) | 5(-2) | 25( = ) | 20(+1) | 15(+9) |
| Litva | 19(+7) | 42(+2) | 43(+2) | 34(-2) | 35(+2) | 29(+19) | 41(+6) |
| Latviya | 39(-4) | 43(+5) | 33(+19) | 61(+4) | 37(-1) | 49(-5) | 31(+11) |
| Rusiya | 110(-21) | 26(+1) | 72(-10) | 56(-8) | 44( = ) | 54(-3) | 53(-5) |
| Azərbaycan | 42(+4) | 87( = ) | 95(-5) | 85(-5) | 64(+13) | 114(+3) | 100(+5) |
| Ukrayna | 100(-3) | 47(+2) | 77(+5) | 104(-2) | 48( = ) | 45(-9) | 37(+26) |
| Gürcüstan | 25(+5) | 69(+1) | 80(+3) | 77(-5) | 58(+6) | 72(+3) | 81(+5) |
| Belarus | 128(+2) | 37(-2) | 71(-4) | 99(-3) | 74(-2) | 47(-7) | 88(+3) |
| Özbəkistan | 55(+8) | 89(+6) | 73(+1) | 69(-9) | 78(-4) | 78(+2) | 93(+9) |
| Qazaxıstan | 61(-9) | 59(+1) | 59(-1) | 87(+3) | 75(-7) | 83(-2) | 90(+28) |
| Qırğızıstan | 122(-9) | 49(+14) | 92(-6) | 71(-20) | 114(-7) | 96(-4) | 116(+5) |
| Tacikistan | 90(+1) | 99(-14) | 122(-1) | 94( = ) | 110(+18) | 85(-1) | 123(-7) |

Mənbə: 2022-2023-cü illər üzrə QİI hesabatları əsasında tərtib edilmişdir.

*Qeyd: Komponentlər üzrə bu ilki mövqelərin 2022-ci il ilə müqayisəsi mötərizədə rəqəmlərlə ifadə edilmişdir. Müvafiq olaraq rəqəmlərin qarşısındakı "+" işarəsi reytinqdəki irəliləyişi, "-" işarəsi isə geriləməni ifadə edir.*

Cədvəl 2-də alt-indekslərə daxil olan komponentlər üzrə reytinqlər göstərilmişdir. Bu nəticələr 7 komponentin hər birinə ayrı-ayrılıqda məxsus olan göstəricilərin reytinqlərinə əsasən müəyyən edilir. Azərbaycanın 2023-cü il QİI hesabatında 89-cu yerdə qərarlaşması müvafiq sahələrin müxtəlif səviyyədə inkişafı nəticəsində bu göstəricilərin güclü və zəif tərəfləri ilə əlaqədardır. 2023-cü il QİI hesabatında Azərbaycanın güclü tərəfləri kimi, biznesin aparılması siyasəti - 22; işdən çıxarılma xərcləri - 51; hökumətin effektivliyi - 58; şagird-müəllim nisbəti, orta təhsil - 17; hökumət maliyyəsi/şagird, orta, % ÜMD - 28; tədqiqatçılar - 44; təbiət və texniki elmlər (mühəndislik) məzunları - 47; universitet-sənaye-tədqiqat əməkdaşlığı - 25; klasterlərin inkişafı - 28; elmi dərəcəsi olan işləyən qadınlar – 55 və s. indikatorları üzrə qeyd olunmuşdur. 2023-cü ilin QİI hesabatında açıqlanan nəticələrə əsasən Azərbaycanın zəif tərəflərinə isə universitetlərin reytinqi, ilk 3-də olan universitetlərin orta göstəricisi - 71; tədqiqat və işləmələrlə investisiya yatıran top 3-də olan qlobal şirkətlər - 40; ümumi kapital formalaşması (investisiyaların ÜDM-ə nisbəti) - 122; birgə müəssisələrin strateji əməkdaşlıq müqavilələri -

115; xaricdən maliyyələşdirilən elmi tədqiqatlar - 96; patent ailəsi/mlrd PPP$ ÜDM) - 95; istehsal və ixracın mürəkkəbliyi - 114; kreativ məhsulların ixracı – 121 və s. indikatorlar qeyd olunmuşdur.

Ölkəmizin dünya üzrə innovativ mövqeyin formalaşdıran güclü tərəflərinin olması ilə yanaşı bəzi götəricilərdə zəif reytinq əldə etdiyini də qeyd etmək lazımdır. Buna baxmayaraq, bir neçə komponentə daxil olan göstəricilərin hal-hazırda tutduğu yer QİI hesabatındakı lider ölkə olan İsveçrənin, postsovet ölkələri üzrə birinci olan Estoniyanın eyni göstəriciləri üzrə reytinqindən daha yüksəkdədir. Belə ki, Azərbaycanda İnsan kapitalı və tədqiqatlar komponentinə daxil olan orta təhsildə şagird başına görə dövlət xərcləri göstəricisi üzrə 28-ci, şagird-müəllim nisbəti, orta təhsil göstəricisi üzrə isə 17-ci olduğu halda İsveçrədə bu göstəricilərin reytinq səviyyəsinə uyğun olaraq daha geri, yəni 34-cü və 27-ci yerlərdə qərarlaşmışdır. Estoniyada isə orta təhsildə şagird başına görə dövlət xərcləri alt indikatoru üzrə reytinq bizim reytinqdən 23 pillə geridə, yəni 51-ci yerdədir. Bununla yanaşı Estoniya Bazar inkişafı komponentinə daxil olan daxili bazarın həcm göstəricisi reytinqi üzrə 101-ci, biznesin inkişaf səviyyəsi bölməsi olan klasterlərin inkişafı göstəricisi reytinqi üzrə 62-ci olduğu halda ölkəmizin bu istiqamətlər üzrə mövqeyi daha yüksəkdir. Belə ki, Azərbaycan qeyd olunan birinci sahə üzrə 27 pillə fərqlə 74-cü, ikinci sahə üzrə isə 34 pillə fərq ilə 28-ci yerdə bərqərar olmuşdur.

Yuxarıda ümumi olaraq ölkəmizin 7 komponent üzrə reytinqi və bu komponentlərin alt indikatorları üzrə güclü və zəif tərəfləri qeyd olunmuşdur. Ancaq mövzunun məqsədinə uyğun olaraq insan kapitalına aid indikatorların üzərində ayrıca dayanıb bu göstəricilər üzrə zəif nəticə əldə edilməsinin səbəbini təhlil etməyə çalışacağıq.

*Tədqiqat və işləmələrə investisiya yatıran top 3-də olan qlobal şirkətlər.* 2023-cü il hesabatına görə ölkəmiz bu göstərici üzrə 40-cı, ötən il isə 38-ci yerdə qərarlaşmışdır. Sözü gedən indikator metdologiyasına əsasən beynalxalq səviyyədə olan üç ən böyük şirkət tərəfindən tədqiqat və inkişafa çəkilən orta xərclər indeksi ilə ölçülür. Azərbaycan da həmçinin listinqdə şirkətləri olmayan ölkələr sırasında olduğu üçün bu göstərici üzrə 0 balla qiymətləndirilmişdir. Dünya təcrübəsi göstərir ki, ancaq müəyyən proqrama əsaslanmaqla, sistemli planlaşdırma həyata keçirməklə tədqiqat və inkişaf prosesi effektiv olaraq reallaşdırıla bilər.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsaslanaraq qeyd edə bilərik ki, respublikamızda tədqiqat və işləmələri yerinə yetirən təşkilatların sayı 2021-ci ildə 134, 2022-ci ildə isə 131 olmuşdur. Ayrı-ayrı hissələrə ayırdıqda isə 2021-2022-ci ildə dövlət sektoru üçün uyğun olaraq 90 və 86; özəl sektorda 2021-ci ildə 7, 2022-ci ildə isə 6; ali təhsil müəssisələri üzrə isə tədqiqat və işləmələri yerinə yetirən təşkilatların sayı 2021-ci ildə 37, 2022-ci ildə isə 39-dur [5].

Qeyd olunan təşkilatlar tərəfindən ümumilikdə tədqiqat və işləmələrə çəkilən xərclər 2021-2022-ci illər üzrə müvafiq olaraq 194 197,3 min manat və 202 676,9 min manat təşkil etmişdir. Bu xərclər dövlət sektorunda 2021-ci ildə 158 679,4 min manat, 2022-ci ildə 157 094,3 min manat, özəl sektorda 2021-ci ildə 5 729,3 min manat, 2022-ci ildə 3 657,0 min manat, universitetlərdə isə 2021-ci ildə 29 788,6 min manat, 2022-ci ildə isə 41 925,6 min manat olmuşdur [5].

Təqdim edilən məlumatlardan belə bir qənaətə gəlmək olar ki, 2021-ci ildə ümumi xərcin yalnız 2,9 faizi, 2022-ci ildə 1,8 faizi özəl sektor tərəfindən qarşılanmışdır. Tədqiqat və işləmələrə çəkilən xərclərdə, təşkilatların sayında artım müşahidə olunmasına baxmayaraq, bu prosesin həyata keçirilməsində özəl sektor olduqca geridədir. Bunun isə müxtəlif səbəbləri ola bilər.

*Universitetlərin reytinqi, ilk 3-də olan universitetlərin orta göstəricisi.* 2023-cü il hesabatına görə ölkəmiz bu göstərici üzrə 71-ci, 2022-ci ildə isə 72-ci yerdə olmuşdur. Ötən illə müqayisədə 1 pillə irəliləyiş müşahidə olunsa da ümumi nəticə heç də ürəkaçan deyildir. "Universitetlərin reytinqi, ilk 3-də olan universitetlərin orta göstəricisi" indikatoru ölkə üzrə ilk üçlükdə olan universitetlərin orta balı indeksi ilə ölçülür. QS Dünya Universitetləri Reytinqi 2023-cü il hesabatına əsasən Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət İqtisad Universiteti QS Dünya Reytinqində TOP 1,100-1,200 sırasında yer almışdır. 2021 və 2022-ci illərdə də adı çəkilən universitetlər reytinqə daxil olmuşdur. Onu da qeyd etmək lazımdır ki, ölkəmiz yalnız 2021-ci

ildən etibarən bu reytinqdə iştirak edə bilmişdir[14]. Artıq Azərbaycanın 3-cü dəfə bu reytinqə daxil olmasına baxmayaraq arzulanan nəticəni hələ də əldə edə bilməməyimiz mövcud olan bir sıra problemlərlə əlaqədardır. Müəllimlərin tədqiqatçı, yenilikçi səviyyəsinin aşağı olması QS Dünya Reytinqində də qeyd olunduğu kimi həm akademik nüfuza, həm də elmi tədqiqatların statistikasına çox böyük mənfi təsir göstərən amillərdən biri hesab edilə bilər. Çünki elm daima yenilənir, uyğun olaraq müəllimlərin məlumatlarının yenilənməməsi hər il auditoriyalarda eyni məlumatların təkrarlanmasına səbəb olur, bu isə inkişafla təzad təşkil edir.

Növbəti amil kimi tələbələr üçün əlverişli şəraitin olmamasını göstərə bilərik. Bu da xarici tələbələrin Azərbaycana maraqlarının azalmasına, azərbaycanlı tələbələrin isə xaricdə təhsilə meyillənməsinə səbəb olur. Ali təhsilin beynəlmiləlləşməsinin sosial, mədəni, siyasi, iqtisadi və elmi motivləri var, ancaq onun əsas məqsədi dünyada ali təhsil sistemlərinin harmonizasiyasıdır. Ali təhsilin beynəlmiləlləşməsini şərtləndirən amillərə, xüsusilə də, Qərbdə son onilliklərdə ali təhsildə iştirakın sürətli artımı, "qlobal bilik iqtisadiyyatı" – yəni, texnologiya və elm əsaslı beynəlxalq iqtisadi münasibətlərə keçid və bu baxımdan tədqiqatın önəminin artması, insan kapitalının formalaşmasında ali təhsilin roluna artan diqqət, akademik muxtariyyət və azadlıqların institutlaşması, universitetlərin qlobal sıralaması sistemlərinin formalaşması daxildir [6].

Nəticə zəifliyinin səbəbi təkcə qeyd olunan problemləri əhatə etmir. Bu prosesin iştirakçıları ilə bağlı müxtəlif səbəbli maneələri qeyd etmək olar. Müxtəlif səbəbli problemlərin olması qaçınılmaz haldır, lakin buna baxmayaraq bu maneələrin aradan qaldırılması üçün müxtəlif tədbirlər həyata keçirilməlidir. Buna misal olaraq, elmi potensialın gücləndirilməsi, beynəlxalq elmi əməkdaşlıqların qurulmasına meyilliliyin artırılması, bu istiqamətdə beynəlxalq əlaqələr şəbəkəsinin genişləndirilməsi, QS reytinqlərinin metodologiyasını öyrənmək, sosial şəbəkələrlə fəal iş nümayiş etdirilməsini və s. göstərə bilərik.

Ölkəmizin bu reytinqdə mövqeyinin yaxşılaşdırılması üçün müxtəlif tipli tədbirlər həyata keçirilir. Misal olaraq, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nı qeyd edə bilərik. Dövlət Proqramında qeyd olunmuşdur ki, inkişaf etmiş ölkələr davamlı və uğurlu iqtisadi tərəqqiyə məhz ali təhsil sisteminin beynəlxalq standartlar səviyyəsinə yüksəldilməsi sayəsində nail olmuşlar. Proqramın əsas hədəfi ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir [3].

Bununla yanaşı innovasiyaların təşviq edilməsi və insan kapitalının yüksək səviyyədə inkişafı ilə bağlı məsələlər ətraflı şəkildə öz əksini tapmış olduğu "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ni də qeyd edə bilərik. Təhsil, elm və innovasiya arasında effektiv qarşılıqlı əlaqənin qurulması, yəni "bilik üçbucağı"nın formalaşdırılması məqsədilə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə ali təhsil müəssisələrində "təhsil-tədqiqat-innovasiya" formatında inkişafın təşviqi ayrıca tədbir kimi nəzərdə tutulmuşdur. Universitet klasterlərinin yaradılması "təhsil - tədqiqat - innovasiya" zəncirinin effektivliyini artırılmasına xidmət edir. Universitet klasterlərinin yaradılması araşdırma və təkmilləşdirmələrin həyata keçirilməsini, elmi nəticələrin istehsala tətbiqini, təhsil-elm-istehsal əlaqələrinin səmərəliliyi yüksəldəcəkdir.

Bu kontekstdə universitetlərin və elmi-tədqiqat institutlarının elmi fəaliyyətinin nəticələrinin kommersiyalaşdırılması prioritet əhəmiyyət daşıyır. İnsan kapitalına qoyulan investisiyaların əsasən uzunmüddətli dövrdə bəhrə verməsini nəzərə alsaq bu istiqamətdə aparılan düzgün dövlət siyasətinin aparılması nəticəsində perspektivdə innovasiyalı iqtisadiyyatın yaradılması istiqamətində uğurlarımız şübhəsizdir. Bu da, Azərbaycanın beynəlxalq rəqabət qabiliyyətinin yüksəlməsinə və "İnsan inkişafı indeksi" reytinqində ölkəmizin mövqeyinin möhkəmlənməsinə gətirib çıxaracaq.

## İNSAN İNKİŞAFI İNDEKSİ

İnsan inkişafı haqqında müasir təsəvvürlərin formalaşmasında Məhbub ul Haqın və Amartya Senin ən böyük rolu olmuşdur. "İnsan inkişafı haqqında düşüncələr" kitabının müəllifi kimi bu mövzunu hərtərəfli araşdırmış Pakistanlı iqtisadçı-alim Məhbub ul Haq həm də 1990-cı ildə BMT-nin İnsan İnkişafı haqqında ilk hesabatının təşəbbüskarı olmuşdur. Sonradan iqtisadi elmlər sahəsində Nobel mükafatı laureatı Amartya Sen bu konsepsiyanın nəzəri əsaslarını daha da təkmilləşdirmişdir. Dövrünün yenillikçi ideyası sayılan insan inkişafı yanaşması Məhbub ul Haqın təşəbbüsü və sonradan rəhbərliyi ilə BMT İnkişaf Proqramının ekspertlər qrupu tərəfindən təkmilləşdirildi və 1990-cı ildən etibarən hər il nəşr olunan İnsan İnkişafı haqqında Qlobal Hesabatın konseptual bünövrəsinə çevrildi [7]. Qlobal inkişafı ölçən İnsan İnkişafı İndeksi (İİİ) ölkələrin inkişaf səviyyələrini müqayisə etmək üçün əsas vasitə hesab olunur. Bu məlumatlar haqqında hesabat müntəzəm olaraq Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) tərəfindən dərc olunur.

"İnkişafın vəzifəsi yoxsulluğun ən bədbin təzahürləri üzərinə prinsipial hücumun təşkili kimi qəbul edilməlidir. İnkişaf məqsədləri qida çatışmazlığı, xəstəliklər, savadsızlıq, səfalət, işsizlik və qeyri-bərabərliklərin ardıcıl surətdə azaldılması və tədricən tamamilə aradan qaldırılması kimi ifadə olunmalıdır" [16].

İnsanların yaşama keyfiyyətini ölçən İİİ özündə sağlamlıq, təhsil və yaşama səviyyəsi komponentlərini birləşdirir. Birinci komponent olan sağlamlıq gözlənilən ömür uzunluğu ilə ölçülür. Qlobal inkişafın əsas hərəkətverici qüvvəsi olan təhsil komponenti metodologiyasına əsasən məktəbəqədər yaşda olan uşaqların gözlənilən məktəb illəri və yaşlı əhalinin orta məktəbdə oxuduğu illər ilə ölçülür. Orta təhsil illəri 25 və daha yuxarı yaşda olan yetkinlərin ümumi məktəbdə təhsil aldıqları illərin təxmini orta sayı müəyyən edilir. Gözlənilən təhsil illəri isə məktəbə qəbul yaşında olan bir uşağın gözləyə biləcəyi məktəb illərinin sayını müəyyən edir. Ümumi Milli Gəlirin səviyyəsi isə üçüncü komponent olan həyat səviyyəsinin ölçü meyarıdır. Bu üç komponentin dəyərləri bir ölkə üçün ayrı-ayrılıqda İnsan İnkişafı İndeksini müəyyənləşdirir. İİİ dəyərləri 0 ilə 1 intervalı arasında dəyişir, ən yüksək 1 dəyəri, müvafiq ölkənin daha yüksək inkişaf səviyyəsində olduğunu göstərir. İİİ hesablanması qeyd olunan komponentlər nəzərə alınmaqla aparıldığına görə BMTİP hər il bu göstəricini inkişaf etdirmək üçün müxtəlif BMT proqramlarından məlumat toplayır.

**Qrafik 1. Azərbaycanın İnsan İnkişafı İndeksi üzrə dinamikası**




Mənbə: İnsan İnkişafı İndeksinin 1995-2021-ci illər üzrə hesabatları

Birləşmiş Millətlər Təşkilatının 2022-ci il hesabatında son illər ərzində sağlamlıq, təhsil və iqtisadi rifah göstəricilərində onillərlə davam edən irəliləyişlərin Covid-19 pandemiyasının təsiri ilə geriləməsi,

hər bir ölkədə insan inkişafında mənfi dəyişikliklərin olduğu açıqlanır. "İnsan İnkişafı İndeksi 2022" hesabatına əsasən Azərbaycan dünyanın 195 ölkəsi arasında 91-ci yerdə qərarlaşmışdır. Hesabata görə, Azərbaycanın İnsan İnkişafı İndeksi 2021-ci ildə 0,745, 2020-ci ildə isə bu rəqəm 0,741 olmuşdur.

## NƏTİCƏ

Apardığımız araşdırmanın nəticəsi kimi qeyd edə bilərik ki, innovasiyalı iqtisadiyyat insan kapitalının idarə edilməsi sahəsinə yanaşmaların inkişafını zəruri edir, bilik iqtisadiyyatının müasir tələblərinə müvafiq olaraq insan kapitalının idarə edilməsinin yeni mexanizminin işlənib hazırlanmasını şərtləndirir.

Apardığımız tədqiqatdan aydın olur ki, Azərbaycanda tədqiqat və işləmələrə çəkilən xərclərdə, təşkilatların sayında artım müşahidə olunmasına baxmayaraq, bu prosesin həyata keçirilməsində özəl sektor olduqca geridədir. Bunun isə müxtəlif səbəbləri ola bilər. Belə ki, tədqiqat və inkişaf fəaliyyətindən əldə ediləcək innovativ nəticələrə ehtiyac duyulmaması, bu prosesə sərf edilən vəsaitə izafi xərclər kimi baxılması, büdcə planlaşdırılarkən tədqiqat üçün vəsaitin nəzərdə tutulmaması, bu barədə maariflənmə səviyyəsinin aşağı olması və s. Bu problemləri ön planda tutaraq tədqiqat və inkişaf prosesinin yaxşılaşdırılması üçün bəzi çıxış yolları təklif etmək olar. Kompleks və sistemli xarakter daşıyan problemlərin həllində effektivlik əldə ediləcək prioritet sahələr və bu sahəyə yönəldilən layihələr müəyyənləşdirilməli, regional səviyyədə rəqabətqabiliyyətli innovasiya, tədqiqat və inkişaf strategiyaları hazırlanmalıdır. Layihələrin, strategiyaların hazırlanmasında gələcək tendensiyalar və beynəlxalq maraqlar nəzərə alınmalıdır. Bazar tələbləri nəzərə alınaraq tədqiqat və inkişaf fəaliyyətləri həyata keçirilməli, özəl şirkətlərdə dövlət tərəfindən dəstəklənən strateji inkişaf bölmələri fəaliyyət göstərməlidir.

Eyni zamanda, universitetlərin və elmi-tədqiqat institutlarının elmi fəaliyyətinin nəticələrinin kommersiyalaşdırılması prioritet əhəmiyyət daşıyır. İnsan kapitalına qoyulan investisiyaların əsasən uzunmüddətli dövrdə bəhrə verməsini nəzərə alsaq bu sahədə düzgün dövlət siyasətinin aparılması nəticəsində perspektivdə innovasiyalı iqtisadiyyatın yaradılması istiqamətində uğurlarımız şübhəsizdir. Bu da, Azərbaycanın beynəlxalq rəqabət qabiliyyətinin yüksəlməsinə və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin möhkəmlənməsinə gətirib çıxaracaq.

## REFERENCES

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir. https://president.az/az/articles/view/50474
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. https://static.president.az/pdf/38542.pdf
3. 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. https://president.az/az/articles/view/30751
4. Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyası. https://azranking.az/az/ratings/hesabat-barede-qisa-melumat-18
5. "Azərbaycan təhsil, elm və mədəniyyət", Statistik məcmuə/2023, Səh. 323-348;
6. İnsan İnkişafı Hesabatı 2021-22 https://hdr.undp.org/content/human-development-report-2021-22
7. İnsan inkişafı. Dərs vəsaiti. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Bakı-2014

8. Qlobal İnnovasiya İndeksi 2022-ci il hesabatı. https://www.globalinnovationindex.org/gii-2022-report#

9. Qlobal İnnovasiya İndeksi 2021-ci il hesabatı. https://www.wipo.int/global_innovation_index/en/2021/

10. Qlobal İnnovasiya İndeksi 2023-cü il hesabatı https://www.wipo.int/global_innovation_index/en/2023/

11. Rəsulova, M., Muradova, N. MDB ölkələrinin innovasiya sisteminin səmərəlilik göstəriciləri və müqayisəli təhlili. Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri elmi əsərlər toplusu. XXI buraxılış-2021. Səh 56-69.

12. Rəsulova, M., Mikayılov, F. İnsan kapitalinin səmərəli idarə edilməsinin innovasiyali iqtisadiyyatda rolu. Beynəlxalq elmi-praktiki konfransın materialları-2017. Səh 115-120.

13. De Wit, H., & Altbach, P. G. Internationalization in higher education: global trends and recommendations for its future. Policy Reviews in Higher Education,. 5(1), 2021, 28-46.

14. QS World University Rankings 2023: Top global universities https://www.topuniversities.com/university-rankings/world-university-rankings/2023

15. Shultz T. Investment in Human Capital. N. Y., London, 1971, p. 26–28

16. Mahbub ul Haq, "Yoxsulluq Pərdəsi", 1976-cı il

## THE ROLE OF HUMAN CAPITAL IN THE DEVELOPMENT OF THE INNOVATIVE ECONOMY

Matanat RASULOVA
Sura TAGHIYEVA

### SUMMARY

Success in the economy is related to the presence of innovative potential and the conditions for its implementation. In the article, the need for an effective economic view of human activity for the development of an innovative economy is taken as a basis. A comparative analysis was conducted with the aim of determining Azerbaijan's human capital position in the international world. The changes in the position of our country over the years are related to the factors affecting the rating indicators. Implementation of systematic planning to improve the weak points of indicators on ratings, and to obtain high quantitative indicators in general, remains relevant. At the same time, conducting broad-based research on weak indicators, concretely determining the causes and applying state-level solution mechanisms are of particular importance in increasing Azerbaijan's position in international reports. The analysis of the reforms carried out in our country shows that thanks to the correct state policy aimed at the management of human capital, favorable conditions for the creation and development of an innovative economy have been created in the Republic of Azerbaijan.

***Keywords:*** *human capital, rating, innovative economy, economic development*

Məqalə redaksiyaya daxil olub: 21.09.2023
Təkrar işlənməyə göndərilib: 08.10.2023
Çapa qəbul olunub:17.11.2023